# Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Sinqapur təcrübəsindən istifadə edir



***Bakı Beynəlxalq Dəniz Ticarət Limanı İstismar Xidmətinin müdiri Yevgeni Si (Eugene Seah) AZƏRTAC-a məxsusi müsahibəsi.***

**- Özünüz barədə ətraflı məlumat vermənizi xahiş edirik. Sizcə nə üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanı sizi işə cəlb edib?**

- İlk öncə bu imkanı mənə verdiyi üçün Bakı Beynəlxalq Dəniz Ticarət Limanına (Bakı limanı) öz təşəkkürümü bildirmək istəyirəm. Mən liman sənayesinə karyeramın böyük bir hissəsini sərf etmişəm. Sinqapurda iki əsas liman olan PSA Konteyner Terminalları və Jurong limanında 25 illik iş təcrübəsinə malikəm. PSA-da işlədiyim zaman Sinqapur, Yaxın Şərq və Çində olan Terminalları idarə etmişəm, Pasir Panjang və Jurong limanındakı yeni liman terminallarının planlaşdırılması işinə də cəlb olunmuşam. Bakı Beynəlxalq Dəniz Ticarət Limanından əvvəl, Jurong limanında həm əməliyyatlar və həm də kommersiya üzrə ali rəhbərlik səviyyəsində bir neçə təyinat almışam. Jurong limanında mən ümumi yük, topa yük və konteyner terminallarında kommersiya və əməliyyatların bütün aspektlərini nəzərdə tutan vitse-prezident vəzifəsini daşımışam.

Zənnimcə, mənim bu yeni təyinatım işi yerinə yetirmək üçün keçmiş təcrübəm və texniki nouxaudan istifadəni tələb etməklə, lap yerinə düşür. Əminliklə deyə bilərəm ki, Sinqapurda çalışdığım limanlar dünyanın ən aparıcı limanlarından biridir və mən ən təkmil təcrübələri Ələtdəki yeni Bakı limanına tətbiq edəcəyimə ümidvaram. Qarşıda duran məsələ hər şeyi iş mühitində öz uyğun yerinə qoyulmasından, yəni əməliyyatların bütövlükdə və yeni limanda nə cür həyata keçiriləcəyindən asılıdır. Çünki istənilən digər proseslərdə olduğu kimi, bir-biri ilə bağlı olan daxili və kənar asılılıqlar mövcuddur. Hər şeydən əvvəl, mənim vəzifəm yeni əməliyyatı idarəetmə yanaşmalarını təqdim edərək, uyğunlaşdırılmış proqram təminatı və kompyuter avadanlıqlarını ağılla tətbiq edərək limanda nəqliyyat və logistika ilə bağlı əməliyyatların optimallaşdırılmasını nəzərdə tutur.

O ki qaldı Bakı limanı məni nə üçün işə cəlb edib sualına, mənim qənaətimə görə, Azərbaycana öncə etdiyim iki səfər zamanı limanın rəhbər heyəti ilə həyata keçirdiyim əlaqələr onlarda mənim mövcud vəzifə və tapşırıqların öhdəsindən gələ biləcək bir şəxs olduğum fikrini formalaşdırıb. Eyni zamanda Sinqapurda olan əlaqə və şəbəkələrim sayəsində mən özəl və dövlət kanalları vasitəsilə digər ekspertiza sahələrini də cəlb edə bilirəm. Məsələn, limanın baş direktoru Taleh Ziyadov ilə birlikdə Sinqapur şirkətləri ilə vacib əlaqələr qurmağa nail olmuşuq və yaxın tarixdə Sinqapurun Kooperasiya Təşkilatı ilə Anlaşma Memorandumu imzalamağı planlaşdırırıq. Bu təşkilat xarici hökumət və korporasiyalara Sinqapurun özəl və dövlət sektorlarının ekspertləri ilə sıx əməkdaşlıq şəraitində öz inkişaf hədəflərinə nail olmağa kömək edən Sinqapurun aparıcı dövlət qurumudur. Anlaşma Memorandumu Bakı limanına Ələtdəki yeni liman və logistika zonası üçün strateji planı işləyib hazırlamaq və Sinqapur şirkətləri ilə əməkdaşlığı gücləndirməyə imkan verəcək.

**- Bu təyinatda sizi nə cəlb etdi?**

- Mən yeni Bakı Limanı barədə Taleh Ziyadovun bu ilin aprel ayında Sinqapurun Jurong limanına səfəri zamanı öyrənmişəm. O, Ələtdəki yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı barədə danışaraq bu limanın Azərbaycan Respublikası Prezidentinin özünün nəzarəti altında olduğunu vurğuladı, Azərbaycanda Liman Mərkəz (Hub) Strategiyası Çərçivəsinə nə cür uyğun olduğu barədə söhbət açdı. Ələtdəki yeni Bakı limanını Avrasiya məkanında mühüm nəqliyyat və logistika qovşağı şəklində inkişaf etdirərək Azərbaycan iqtisadiyyatının diversifikasiyasına töhfə verməyi nəzərdə tutan Liman Mərkəz Strategiyası mənə cəlbedici göründü. Bu məndə maraq oyatdı və anladım ki, qədim İpək Yolu üzərində Azərbaycanın tarixi ticarət qovşağı mövqeyini özünə qaytaracaq bu nəhəng layihənin tərkib hissəsi olmaq həyatda bir dəfə ələ düşən imkandır. Bu təyinatı qəbul etməzdən əvvəl, mən Bakı və limanı görmək, bu perspektiv planı əyani şəkildə qiymətləndirmək üçün Azərbaycana iki səfər etdim, layihələndirilən işin miqyası məndə böyük təəssürat oyatdı. Bildiyiniz kimi, Ələtdəki yeni Bakı limanı üçün 400 hektar torpaq sahəsi ayrılıb ki, bunun 100-115 hektar hissəsi beynəlxalq logistika və ticarət zonasının inşası üçün nəzərdə tutulub. Liman ətrafındakı şimal əraziləri logistika, sənaye və istehsal fəaliyyətinin gələcəkdə genişləndirilməsi üçün planlaşdırılıb.

**- Bu layihənin uğurunu necə qiymətləndirərdiniz?**

- Məncə bu nəhəng bir layihədir. Həm Avrasiya ticarəti və həm də Azərbaycanın qeyri-neft iqtisadiyyatı üçün mühüm rol oynayacaq. Mən sizin Prezidentinizin Ələtlə bağlı perspektiv planlarına inanıram və hesab edirəm ki, bu plan realdır və mən onun gerçəkləşdirilməsində mühüm rol oynaya bilərəm.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində ən qədim və böyük ticarət limanıdır. Şəhərin mərkəzində yerləşdiyinə görə, Azərbaycan hökuməti onu paytaxtdan 70 kilometr cənubda Ələt adlı kiçik şəhər yaxınlığındakı yeni əraziyə köçürüb. Bildiyiniz kimi, Ələt Böyük Bakı inzibati sərhədləri daxilində olub, bölgənin mühüm dəmir və avtomobil yollarının strateji kəsişmə nöqtələrində yerləşir. Azərbaycanın əsas dəmir və avtomobil yolları bu məntəqədə kəsişir. Qeyd etmək vacibdir ki, bu yeni sahə İran (200 km), Rusiya (250 km), Türkiyə (1000 km), Mərkəzi Asiya (300-400 km) və Qərbi Çinə (təxminən 3,000 km) çox yaxındır. Başqa sözlə desək, bu yerli deyil, Avrasiya məkanında daha böyük bazarlar üçün əsas paylama mərkəzi olacaq regional layihədir.

Beynəlxalq miqyasda, Çin hökumətinin 2013-cü ildə işləyib hazırladığı, Mərkəzi və Şərqi Asiya vasitəsilə Çini Avropa ilə birləşdirəcək inkişaf strategiyası - “Bir Kəmər, Bir Yol” - adlandırılan İpək Yolu İqtisadi Kəməri təşəbbüsü bizim layihənin şanslarını artırır. Çin hökuməti 11 avqust 2015-ci il tarixində bu marşrut boyu ticarət və nəqliyyat əlaqələrini yaxşılaşdırmaq məqsədilə nəzərdə tutulmuş İpək Yolu İnfrastrukturu Fonduna 40 milyard ABŞ dolları ayırmağı vəd edib, bir neçə aparıcı Çin şirkətləri də bizim liman və logistika zonası ilə maraqlanır.

Bu layihə milli səviyyədə də uğursuz ola bilməz. Azərbaycan iqtisadiyyatını düşən neft qiymətlərindən qorumaq üçün layihə iqtisadi diversifikasiya baxımından da mühümdür. Bundan daha vacib olanı isə, Azərbaycan Respublikası Prezidentinin dəstəyi və onun Ələtdəki yeni Bakı Limanını Avrasiyanın gələcək nəqliyyat və logistika qovşağı kimi nəzərdən keçirməsidir. Əminəm ki, biz bu dəstəklə öz liman mərkəz strategiyamız üçün müvafiq çərçivəni qura biləcəyik. Bu çərçivə mühüm uğur amili olan və Ələtdəki müxtəlif nəqliyyat növləri ilə qarşılıqlı daşıma ticarəti və əlavə dəyər xidmətlərini inkişaf etdirmək üçün yeni limanda xüsusi hüquqi rejim təmin etməlidir. Bundan əlavə, hazırda limanda yenidənqurma işləri həyata keçirilir və limanın baş direktorunun rəhbərliyi altında artıq bu işi həyata keçirmək üçün müvafiq idarəetmə strukturu yaradılıb. Bu komanda öz aidiyyəti iş sahələrində ixtisaslaşmış uzunmüddətli peşəkarlardan təşkil olunub və hər komanda üzvü ən təkmil təcrübəsini və nouxaunu bu layihəyə tətbiq edir. Bu, yeni nizam-intizam, diqqət, innovasiya və qətiyyətlilik düşüncə tərzinin olduğu yeni mədəniyyəti qurmaq baxımdan vacibdir.

Bu məsələni bir daha vurğulamaq üçün qeyd etməliyəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələtdəki yeni Bakı Limanını Avrasiyanın gələcək nəqliyyat və logistika mərkəzi kimi nəzərdən keçirir. Növbəti ildə Azərbaycan-Gürcüstan-Türkiyə və Avropanı birləşdirəcək yeni Bakı-Tbilisi-Qars dəmir yolu işə düşərək Çini Azərbaycan vasitəsilə Avropa ilə birləşdirəcək. Bildiyiniz kimi, 3 avqust tarixində biz yeni Bərə Terminalımızda Qərbi Çindən ilk konteyner blok qatarını qəbul etdik. Bu, yuxarıda verilmiş Çin-Avropa dəmir yolu bağlantısına hazırlıq üçün sınaq qatarı oldu. Nəzərinizə çatdırıram ki, qatar Çindən Bakıya cəmi 6 günə çatdı.

Beləliklə, bu layihənin uğuru təmin edilib və məsələ kəmərin hərəkətə gətirilməsi üçün bütün hərəkət tərkiblərinin nə zaman təmin ediləcəyindən ibarətdir.

**- Yeni terminalda əməliyyatların səmərəliliyini təmin edəcək ən vacib meyar hansıdır?**

- Bizim ən təkmil sistemlərimiz olsa da və ən müasir avadanlıqları satınalmaq üçün milyonlarla dollar sərf etsək belə, sistemləri idarə edəcək və avadanlıqlara texniki xidmət göstərəcək insanlar olmazsa, heç nəyin mənası qalmayacaq, çünki siz biznesinizin tələblərini təmin edəcək və sifarişçilərinizin tələblərinə cavab verəcək dayanıqlı səmərəlilik və məhsuldarlıq səviyyəsini təmin edə bilməyəcəksiniz. Bunun üçün idarəetmə heyətində bizim “ağıllı yaradıcılar” adlandırdığımız insanların olması vacibdir. Bu cür insanlar problemin həllini aramaq və xüsusən də problemin aradan qaldırılmasına olan zərurəti gördükdə bunu etməsi söylənilmədən həll yolunu təklif edən insanlardır. Münasib insanların münasib vəzifələrə təyinatı uğurun təmin edilməsi üçün çox mühüm amildir.

**- İndiyədək Bakı limanında hansı işlərin görüldüyünü və öz əməliyyatlarınızı Ələtdəki yeni limana nə zaman köçürəcəyinizi açıqlaya bilərsinizmi?**

- Ələtdəki yeni limanda tikinti işlərinin hələ də davam etdiyi üçün biz şəhər mərkəzindəki köhnə Bakı limanında hazırlıq işlərimizə başlamışıq. Mühüm proseslərdən bəzilərinin təkrar işlənməsi, əməliyyatlarımızı yeni limana köçürərkən, hazırkı liman üçün kritik proseslərin qayğısına qalacaq insanları təyin edərək biz əməliyyatların təkmilləşdirilməsinə artıq başlamışıq. Limanın əməliyyat imkanında olduğunu potensial sifarişçilərimizə nümayiş etdirmək nöqteyi-nəzərindən bu işlər vacibdir. Biz həmçinin, limandakı işçi heyətinə dünyada gedən yeni proseslər üzrə təlimlər keçirik və mütəşəkkil təlim və öyrətmə vasitəsilə insan bacarıqlarının inkşafına dəyərin qatılmasına inanırıq.

Ələtdəki Yeni Bakı Limanının birinci mərhələsinin tikintisinin 2017-ci ildə başa çatdırılması planlaşdırılır. 2016-cı ilin sonunadək Ro-Ro terminalının tikintisinə üstünlük verilir. Bu, Türkiyə ilə Mərkəzi Asiya arasında hərəkət edəcək iri yük maşınlarının (TİRlər) hərəkəti üçün əsas terminaldır.

**- Azərbaycan, Bakı sizin üçün xaricdə ilk iş təcrübəsidir?**

- Xeyr, mən PSA-da olarkən, Ədəndə (Yəmən) işləmiş və Jurong limanında olarkən, 6 aylıq müddət üçün Çində konteynerlər və topa daşıma ilə məşğul olan Haynan limanına təyinat almışdım. Ədəndə mən mövcud terminalı əvəzləmək üçün yeni terminalın konseptual layihələndirilməsi işinə cəlb olunmuşdum, Çində isə mənə biznes strategiyasının nəzərdən keçirilməsi və gələcək artım üçün əməliyyatların optimallaşdırılması həvalə edilmişdi.

**- Bakı bir şəhər kimi xoşunuza gəlirmi?**

- Bakıda məftun olduğum onun xüsusi cəzbediciliyidir. Səfərlərimin birində UNESCO-nun Dünya İrsinə daxil edilmiş və buna layiq olan İçərişəhərdə qalmaq imkanı qazandım. Bəzən insan özünü qədim məscid və minarələrlə, Bakının ən məşhur tarixi abidəsi olan Qız Qalası ilə sanki keçmişə qayıtmış kimi hiss edir. Digər tərəfdən isə, Bakının hər yerində qədimi və yeni binaların yanbayan dayanması ona xüsusi cazibədarlıq bəxş edir.

İçərişəhərdə, üzüm tənəklərinin və hər küncdə fərqli mənzərənin açıldığı dolanbac və dar, insan diqqətli olmazsa, harada olduğunu bilməyərək çaşbaş qalacağı küçələri özüm üçün araşdırmağı sevirəm. Mən həmçinin Bakının mərkəzindəki fəvvarələr meydanını da xoşlayıram. Heç zaman bu qədər fərqli üslubda fərqli fəvvarələrin olduğu və xüsusən də gecələrin müxtəlif rənglərlə sayrışdığının şahidi olmamışam. Ümumiyyətlə, Bakı Avrasiyada mühüm mərkəz şəhər olmaq adına layiq kosmopolit meqapolisdir. Hər şeydən əvvəl isə, mən Azərbaycan xalqını sevirəm, çünki onlar çox qonaqpərvər və mehribandır.

**- Deməli, buraya işləməyə gəldiyinizdən peşman deyilsiz?**

- Yeganə peşmançılığım həyat yoldaşım və uşaqlarımı gətirməməyimdir. Mənim 7 və 11 yaşlarında olan Sofia və Samuel adlı iki gözəl övladım var. Bununla belə, burada işləmək imkanını uzunmüddətli öhdəlik hesab etdiyim üçün onları da buraya gətirməyi planlaşdırıram. Hər şeydən əvvəl isə, Azərbaycanın Xəzər dənizi bölgəsində ən böyük nəqliyyat və logistik mərkəzinə çevrilməsi məqsədinə nail olmasını görmək istəyirəm.

**- Hansı hobbiləriniz var və Bakıda boş vaxtınızı necə keçirirsiniz?**

- Mən idmanı sevirəm. Açıq hava şəraiti və şəhərdən kənar mühiti xoşlayıram və düşünürəm ki, Azərbaycan açıq hava şəraitində asudə vaxtın təşkili üçün mükəmməl bir yerdir. Ölkəmdə, Avstraliya və Malayziyada bir neçə triatlon yarışlarında iştirak etmişəm. Əgər vaxt imkan verərsə və Azərbaycanda bu cür yarışlar keçirilərsə, mütləq bunu nəzərdən keçirəcəyəm.

Mən həmçinin, qolf oynamağı sevirəm və Qubadakı Azərbaycan Milli Qolf Klubunda oynamaq imkanım olub. Oranın sahəsi çətin olsa da, dağ yollar və ətraf mənzərənin fərəhləndirici görüntüsündən zövq aldım. Bunlar mənim üçün gözəl təcrübə oldu.

**AZƏRTAC**